# Məqsəd aydınlığı və gərgin fəaliyyət olan yerdə

Cəmiyyətimiz üçün orta pillə kadrları hazırlayan Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci 1946-cı ildə yaradılanda burada cəmi bir neçə ixtisas öyrədilirdi. Ancaq indi kollecdə on bir ixtisas üzrə kadr hazırlanır. Fəaliyyət göstərdiyi altmış səkkiz ildə kolleci bitirən minlərlə tələbə kənd və xalq təsərrüfatında çalışmışdır. Ölkəmiz dövlət müstəqilliyi qazanandan sonra bu təlim-tərbiyə müəssisəsi öz inkişafına qovuşdu. Yeni ixtisasların sayı artdı, tədrisin keyfiyyəti yüksəldi, maddi-texniki baza daha da möhkəmləndirildi, mədəni-kütləvi tədbirlərin sayı xeyli çoxaldıldı, təhsilin mütərrəqqi metodlarından istifadə genişləndirildi.

Çoxillik təcrübəyə malik kollecin pedaqoji-mühəndis kollektivi onları qoruyub saxlamaqla bərabər, daim irəliyə, yeniliyə doğru can atır. Qeyd edilməlidir ki, kollektiv mövcud maddi-texniki bazanı saxlayaraq onu daha da zənginləşdirmişdir. Müstəqilliyimizdən keçən iyirmi üç ildə həyata keçirilən islahatlar yaxşı effekt vermişdir.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinə təcrübəli pedaqoq, əməkdar müəllim Xəlil Orucov** rəhbərlik edir. Bizimlə söhbətində o bildirdi ki, 1300-dən çox tələbəyə 113 nəfər müəllim və mühəndis elm və təcrübi biliklər öyrədir. Onlardan 2 nəfəri alim, 25 nəfəri ali kateqoriyalı müəllimdir. Burada fiziki tərbiyə, texnologiya, informatika və təsviri incəsənət müəllimliyi, mühasibat uçotu, maliyyə işi, nəqliyyat vasitələrinin texniki istismarı, aqrar təsərrüfatın təşkili və digər ixtisaslar vardır. Tədrisin məzmun və keyfiyyətinin artırılması məqsədilə müəllimlər müntəzəm olaraq Bakıya ixtisasartırma kurslarına göndərilirlər. Son üç ildə tələbələrin biliklərinin qiymətləndirilməsi 100 ballıq sistemdə həyata keçirilir.

Direktor bir məsələni xüsusi vurğuladı ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 dekabr 2013-cü il tarixli qərarı ilə "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları" təsdiq edilmişdir. 2014-2015-ci tədris ilindən tədrisin təşkili kredit sistemi ilə həyata keçiriləcəkdir. Sistemə keçidlə bağlı olaraq direktor müavini və bir nəfər müəllim Azərbaycan Dövlət İqtisad Universitetində müvafiq kurs keçərək sertifikat almışdır.

Demək lazımdır ki, təlim, tədris və tərbiyənin keyfiyyətli təşkili kollec kollektivini daim düşündürür və mütərəqqi metod və vasitələrdən yaradıcılıqla istifadə olunur. Tələbələrin elmi araşdırıcılıq qabiliyyətlərinin və elmi dünyagörüşlərinin daha da inkişaf etdirilməsi üçün onlar kollecin idarə olunmasına cəlb olunmuş və Tələbə Parlamenti yaradılmışdır. Maraqlıdır ki, hər həftənin beşinci günü kollecin idarə olunması tələbələrin ixtiyarına verilir. Kollec rəhbərliyi tələbələrin gələcəkdə bilikli və hazırlıqlı olmaqla bərabər, həm də əsl vətənpərvər yetişmələrinə çalışır.

Ümummilli liderimiz Heydər Əliyevin ad günü və anım günü böyük hörmət və ehtiramla müxtəlif yığıncaqlar keçirilir.

Deməliyik ki, bütün tədbirlərin hazırlanıb keçirilməsində direktor müavinləri Şahin Əliyev, Səbinə Qurbanova, şöbə müdiri Kamilə Həmidova, ədəbiyyat müəllimi Sona Kərimova, kitabxanaçı Almaz Məmmədova, tarix müəllimi Samir Dadaşov və başqaları fəal iştirak edirlər. ADR-in banisi M.Ə.Rəsulzadənin 130 illik yubileyi, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun, Ağdamda Ermənistan hərbi helikopterini məhv edən İlqar Muradovun igidliklərinə həsr edilmiş tədbirlər indi də hamının yaddaşında yaşayır.

Azərbaycanlı Sovet İttifaqı qəhrəmanları — tank qoşunları generalı Həzi Aslanovun, əfsanəvi kəşfiyyatçı Mehdi Hüseynzadənin, akademik Ziya Bünyadovun və başqalarının həyatı və döyüş yolları barədə gənclərə məlumat verilir, keçmiş tariximiz onlara həvəslə öyrədilir.

Kollec direktoru bildirdi ki, təhsil müəssisəsi Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti ilə elmi və təcrübi əməkdaşlıq qurmuşdur. Tərəflər bir-birləri ilə təcrübə mübadiləsi aparırlar. Bu isə çox faydalıdır. Xarici bilik və təcrübə tələbələrin intellektual səviyyəsinin daha da yüksəldilməsinə təkan verir.

**Vəli İLYASOV,**
**"Respublika".**